UOT 376

# TƏHSİLDƏ İNKLÜZİVLİK VƏ KEYFİYYƏT MƏSƏLƏLƏRİ: DÜNYA TƏCRÜBƏSİ VƏ AZƏRBAYCAN REALLIQLARI

[1,2]Zülfiyyə Vaqif qızı Tanrıverdiyeva, [1,3]Ayşən Fəxrəddin qızı İsmayılova,
[1,4]Günel Alim qızı Nəcəfova
[1]Mingəçevir Dövlət Universiteti
[2]zulfiyya.tanriverdiyeva@mdu.edu.az
[3]ayshan.ismayilova@mdu.edu.az
[4]gunel.necefova@mdu.edu.az
https://doi.org/10.30546/SJSD.2025.5.1.084

***Xülasə:*** *İnklüzivlik daha təkmilləşdirilmiş və uyğunlaşdırılmış təhsil təcrübələri təqdim edərək, təhsil keyfiyyətinin artmasına və sosial ədalətin təmin olunmasına kömək edir.* *İnklüziv təhsilin əsas məqsədi, hər bir uşağın təhsil hüququnu təmin edərək, fiziki, əqli və ya emosional fərqliliklərdən asılı olmayaraq bərabər təhsil imkanları yaratmaqdır. Dünya təcrübəsi ilə yanaşı, Azərbaycanın inklüziv təhsil sahəsində inkişafı, bu sahədə mövcud qanunvericilik, təhsil sistemində tətbiq edilən proqramlar və layihələr barədə geniş məlumat verilir. ABŞ, Finlandiya və İtaliya kimi ölkələrin uğurlu modelləri Azərbaycan üçün nümunə kimi göstərilir. Azərbaycanda təhsildə inklüzivliyin inkişafı üçün hüquqi çərçivələr və dövlət strategiyaları, müəllim hazırlığı və dəstək xidmətlərinin inkişafı məsələləri diqqətə çatdırılır. Həmçinin, Azərbaycanda təhsildə keyfiyyətin artırılması üçün təklif olunan əlavə tədbirlər və inklüziv təhsil modelinin davamlı inkişafı üçün vacib addımlar qeyd olunur.*

***Açar sözlər:*** *təhsildə inklüzivlik, təhsildə dünya təcrübəsi, Azərbaycan təhsil sistemi, fərdi təhsil proqramları, sosial inteqrasiya, beynəlxalq konvensiyalar, əlçatan təhsil mühiti, keyfiyyətli təhsil*

## Giriş

Təhsildə inklüzivlik və keyfiyyət məsələləri qlobal səviyyədə geniş müzakirə olunur. İnklüziv təhsil, xüsusilə xüsusi ehtiyacları olan uşaqların ümumi təhsil mühitinə inteqrasiyasını təmin edərək, hər kəsin bərabər təhsil alma hüququnu müdafiə edir. Bir çox inkişaf etmiş ölkələrdə bu yanaşma artıq uzun illərdir tətbiq olunur və mühüm uğurlar əldə edilib. Lakin hər ölkənin sosial-iqtisadi şəraiti və təhsil sisteminin fərqli olması, inklüziv təhsil praktikasının tətbiqində unikal yanaşmalar tələb edir.

Azərbaycanda inklüziv təhsil sahəsində qanunvericilik islahatları aparılsa da, bu istiqamətdə bəzi çətinliklər hələ də mövcuddur. Bu mövzuda dünya təcrübəsinin öyrənilməsi və Azərbaycanın təcrübəsi ilə müqayisəsi, daha effektiv yanaşmaların inkişafına şərait yarada bilər.

## İnklüziv təhsilin mahiyyəti və əhəmiyyəti

Təhsildə inklüzivlik anlayışı, hər bir fərdin – fiziki, əqli, emosional və ya sosial fərqliliklərindən asılı olmayaraq – eyni təhsil mühitində təhsil almasını təmin etmək deməkdir. İnklüziv təhsil, fərdi ehtiyacları olan uşaqların təhsildən tam yararlana bilməsi, öz potensiallarını reallaşdırması və cəmiyyətə aktiv şəkildə inteqrasiya olunması üçün bərabər imkanlar yaradılmasını nəzərdə tutur. Məqsəd, bütün vətəndaşların, o cümlədən fiziki və əqli inkişafında çətinliklər yaşayan şəxslərin cəmiyyətin ictimai həyatına fəal şəkildə qoşulmasını təmin etməkdir. Təhsil sistemi isə hər bir uşaq və böyüyə akademik və sosial sahələrdə bərabər iştirak imkanı yaratmalıdır [1, s.3]. İnklüziv təhsil, əslində, bütün cəmiyyətə geniş təsir göstərən və gələcək nəsillərə daha inklüziv və tolerant bir mühit yaradan vacib bir prosesdir. Bu yanaşmanın əhəmiyyəti aşağıdakı aspektlərdə özünü göstərir:

– İnklüziv təhsil, təhsildə hər kəs üçün bərabər imkanların yaradılmasına yönəlmişdir. Bu yanaşma təhsil hüququnu universal olaraq qəbul edir və cəmiyyətdə hər bir fərdin potensialını

dəyərləndirir. Əlilliyi olan və ya xüsusi ehtiyacları olan uşaqların ümumi təhsil sistemində təhsil alması onların inkişafı üçün yeni imkanlar yaradır və onlar digər yaşıdları ilə eyni mühitdə öyrənir, sosiallaşır və inteqrasiya olur.

– İnklüziv təhsil, xüsusi ehtiyacları olan uşaqların təhsil mühitində izolyasiya olunmasının qarşısını alır və onların sosial baxımdan cəmiyyətin bir hissəsi olmalarını təmin edir. Bu, uşaqların digər yaşıdları ilə birlikdə böyüməsinə və hər bir insanın müxtəlifliklləri qəbul etməyi öyrənməsinə kömək edir. Əlilliyi və xüsusi ehtiyacı olan uşaqlarla digər uşaqların birlikdə təhsil alması cəmiyyətin daha tolerant və anlayışlı olmasına şərait yaradır.

– İnklüziv təhsil fərdi ehtiyaclara uyğunlaşmanı təşviq edir. Hər bir fərdin təhsil prosesində fərqli ehtiyacları ola bilər, bu ehtiyaclar sinif otağında dəstəklənərək, uşaqların öz potensiallarını daha yaxşı reallaşdırmalarına imkan yaradır. Müəllimlər inklüziv təhsil mühitində fərdi yanaşmaları təcrübədən keçirərək, hər bir tələbəyə xüsusi metodlarla dəstək verir.

– İnklüziv təhsil mühitində uşaqlar bir-biri ilə ünsiyyət qura, birlikdə işləməyi və bir-birini anlamayı öyrənirlər. Bu yanaşma uşaqların həm sosial, həm də emosional inkişafına müsbət təsir göstərir. Onlar daha anlayışlı, tolerant, bir-birinin ehtiyaclarını və fərqliliklərini qəbul edən bir mühitdə böyüyürlər. Bu xüsusiyyətlər gələcəkdə cəmiyyətin inkişafında və sülhsevər mühitin formalaşmasında mühüm rol oynayır.

– İnklüziv təhsil, cəmiyyətin bütün üzvlərinə bərabər dəyər verən və hər kəsin hüquqlarını müdafiə edən bir gələcək yaradır. İnklüziv təhsildə öyrənilən dəyərlər – bərabərlik, hörmət və dəstək – cəmiyyətin daha sosial cəhətdən məsuliyyətli və qarşılıqlı anlayışlı olmasına şərait yaradır. Bu isə inklüziv cəmiyyətin əsasını qoyur və inklüziv təhsilin ən mühüm faydalarından biridir.

**Qlobal və yerli perspektivdə inklüziv təhsil**

Dünya üzrə inklüziv təhsilin inkişafı çoxsaylı ölkələrdə və beynəlxalq təşkilatların dəstəyi ilə müxtəlif mərhələlərdən keçmişdir. İnklüziv təhsil sistemi əvvəllər əsasən əlilliyi olan uşaqların cəmiyyətdən təcrid olunmuş xüsusi məktəblərdə təhsil almalarını nəzərdə tuturdusa, son illərdə inklüzivlik hər bir uşağın bərabər hüquqlarla eyni təhsil mühitində inkişaf etməsini hədəfləyən daha geniş bir anlayışa çevrilmişdir. İnklüziv təhsilin inkişafında mühüm addımlar, beynəlxalq təşkilatların təşəbbüsləri və fərqli ölkələrin təcrübələri bu sahənin qlobal miqyasda qəbul olunmasına səbəb olmuşdur.

- İnklüziv təhsilin qlobal səviyyədə inkişafına UNESCO, UNICEF və Birləşmiş Millətlər Təşkilatı (BMT) kimi beynəlxalq təşkilatlar mühüm dəstək verirlər. Bu təşkilatlar, inklüziv təhsilin vacibliyini vurğulayan əsas sənədləri hazırlayaraq, təhsil hüququnun universal qəbul olunmasını və inklüzivlik prinsiplərinin geniş yayılmasını təşviq edirlər.

- 1994-cü ildə Xüsusi Təhsil Ehtiyacları olan Şəxslər üzrə Salamanka Dünya Konfransı keçirildi və burada 92 hökumət ilə 25 təşkilat Salamanka Bəyanatı və Fəaliyyət Çərçivəsini təsdiqlədi. Bu sənəddə inklüziv məktəblərin inkişafına dair dövrümüz üçün də əhəmiyyətini qoruyan tövsiyələr yer almışdır. Məktəblərin daha səmərəli fəaliyyət göstərməsi və bütün uşaqların potensialını yüksəltmək üçün təhsil sistemində, məktəb idarəçiliyində, sinif təcrübəsində və ümumilikdə təhsil siyasətində vacib dəyişikliklər edilməsinin zəruriliyi vurğulanmışdır. Eyni zamanda, hökumətlərdən inklüziv təhsil üçün qanunvericilikdə, siyasətdə və büdcə planlamasında prioritet yanaşmalar tələb edilmişdir [2, s.9]. Salamanka Bəyannaməsi inklüziv təhsilin inkişafında mühüm bir mərhələ sayılır ki, bu sənəd təhsildə inklüzivlik prinsipini qlobal miqyasda qəbul etdirərək, müxtəlif ölkələrə bu istiqamətdə inkişaf hədəfləri müəyyənləşdirmişdir.

- BMT tərəfindən qəbul olunan Əlilliyi olan Şəxslərin Hüquqları üzrə Konvensiyada (2006) əlilliyi olan şəxslərin hüquqlarının qorunması, o cümlədən onların təhsil alma hüququ vurğulanır. Konvensiya təhsildə inklüzivlik prinsipini əsas tutaraq, əlilliyi olan şəxslərin bərabər imkanlarla ümumi təhsil mühitində təhsil almasını təmin edir və üzv ölkələrdən bu hüquqları qorumaq üçün addımlar atmalarını tələb edir.

- BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri (2015) arasında 4-cü məqsəd olan "Hamı üçün keyfiyyətli təhsil" təhsildə inklüzivliyi təşviq edir. Bu məqsəd, 2030-cu ilə qədər bütün uşaqların, xüsusilə də həssas qrupların bərabər imkanlarla keyfiyyətli təhsil almasını təmin etməyi hədəfləyir.

Dünya üzrə fərqli ölkələrdə inklüziv təhsilin inkişafı müxtəlif modellər və yanaşmalar əsasında həyata keçirilir. Bu modellərdən bəziləri aşağıdakılardır:

ABŞ inklüziv təhsilin hüquqi əsasını yaratmış ilk ölkələrdəndir. 1975-ci ildə qəbul edilən "Əlilliyi olan Şəxslərin Təhsili üzrə Qanun" çərçivəsində xüsusi ehtiyacları olan uşaqların ümumi siniflərdə təhsil almaları təmin olunur. ABŞ-da hər bir uşaq üçün Fərdiləşdirilmiş Təhsil Proqramları hazırlanır, xüsusi ehtiyacları olan uşaqlar sinif yoldaşları ilə birlikdə təhsil alır və müxtəlif dəstək xidmətlərindən yararlanırlar.

Finlandiya bərabər təhsil imkanları ilə tanınan ölkələrdən biridir. Bu ölkədə inklüziv təhsil, hər bir uşağın eyni təhsil mühitində bərabər imkanlarla təhsil almasını təmin edir. Finlandiyada xüsusi ehtiyacı olan uşaqlar ümumi məktəblərdə təhsil alır və onlar üçün məktəb daxilində fərdi dəstək xidməti mövcuddur. Ölkədə müəllimlər yüksək səviyyədə hazırlanır və inklüziv təhsilə dair xüsusi təlimlərdən keçirlər ki, bu da təhsildə inklüzivliyin keyfiyyətini artırır.

İtaliya 1970-ci illərdən etibarən inklüziv təhsil sisteminə keçmişdir və burada xüsusi məktəblər ləğv olunmuş, əlilliyi olan uşaqlar ümumi məktəblərdə təhsil almağa başlamışdır. İtaliyada dəstək müəllimləri xüsusi ehtiyacları olan uşaqlara yardım edir və sinif müəllimləri ilə əməkdaşlıq edirlər. Bu yanaşma, inklüziv təhsilin digər Avropa ölkələrində də geniş yayılmasına təsir etmişdir.

İnklüziv təhsilin dünya üzrə geniş yayılmasının bir neçə əsas səbəbi vardır:

- Beynəlxalq insan hüquqları standartları, cəmiyyətdə bütün fərdlərin tam bərabərlik əsasında və ayrı-seçkilikdən uzaq bir şəkildə iştirakını təmin etmə prinsipinə əsaslanır (BMT, 1993). Son iyirmi ildə, xüsusilə qərb ölkələrində, hüquq bərabərliyi ilə bağlı qanunlar məktəblərdə bütün şagirdlər üçün təhsil imkanlarının təmin edilməsinə əhəmiyyətli dərəcədə təsir göstərmişdir [3, s.39]. BMT-nin Əlilliyi olan Şəxslərin Hüquqları üzrə Konvensiyası və Salamanka Bəyannaməsi kimi beynəlxalq sənədlər inklüziv təhsilin inkişafına böyük təsir göstərmişdir. Üzv ölkələr bu sənədlərə əsaslanaraq öz təhsil sistemlərində inklüzivliyi təmin etmək üçün hüquqi islahatlar həyata keçirmişlər.
- İnklüziv təhsil hər bir uşağın cəmiyyətdə bərabər hüquqlarla iştirakını təmin edir, bu da gələcəkdə cəmiyyətin daha çox inklüziv və sosial baxımdan məsuliyyətli olmasına şərait yaradır. Eyni zamanda, inklüziv təhsil fərqli ehtiyacları olan insanların iş bazarına daxil olmasını və iqtisadi cəhətdən cəmiyyətə faydalı olmalarını təmin edir.
- İnklüziv təhsil sistemi müəllimlər üçün əlavə təlimlər və yeni tədris metodlarının tətbiqi ilə ümumi təhsil keyfiyyətini artırır. Müxtəlif ehtiyacları olan uşaqlarla işləyən müəllimlər, pedaqoji çeviklik və fərdi yanaşma qabiliyyətlərini inkişaf etdirirlər ki, bu da ümumilikdə tədrisin effektivliyinə müsbət təsir göstərir.
- İnklüzivlik yalnız xüsusi ehtiyaclı uşaqlar üçün deyil, bütün təhsil sistemi üçün faydalıdır. Belə ki, inklüziv təhsil müəllimlərin tədris bacarıqlarını genişləndirir, yeni metodların tətbiqinə, fərdi yanaşmaların inkişafına və sinifdə müxtəlifliyə yönəlmiş daha keyfiyyətli təhsil mühitinin formalaşmasına səbəb olur. Müxtəlif ehtiyaclı uşaqlarla işləyən müəllimlər sinifdə daha çox dözümlülük, çeviklik və anlayış göstərməyə meyilli olur, bu da tədris prosesinə müsbət təsir edir.

İnklüziv təhsilin dünya təcrübəsindən Azərbaycan təhsil sisteminə keçidi, beynəlxalq modellərdən və prinsiplərdən istifadə etməklə xüsusi ehtiyacı olan uşaqların təhsilinə bərabər imkanlar yaratmağa yönəlib. ABŞ, Finlandiya və İtaliya kimi ölkələrin uğurlu təcrübələri Azərbaycan üçün nümunədir və qanunvericilik, müəllim hazırlığı, dəstək xidmətləri kimi sahələrdə tətbiq edilməkdədir. Azərbaycanda bu təcrübələrin daha geniş yayılması təhsil sisteminin inklüzivliyini artırmaq və sosial inteqrasiyanı gücləndirmək məqsədi daşıyır.

Azərbaycanda təhsildə inklüzivlik son illərdə inkişaf edən, lakin hələ də çətinliklərlə üzləşən bir sahədir. Çünki sağlamlıq imkanları məhdud uşaqlar həm ətraf mühit, həm də şəxsi səviyyədə qarşılaşdıqları maneələrlə mübarizə aparırlar. Bu maneələr bir-biri ilə əlaqəli şəkildə təsir göstərərək, yeni çətinliklərin yaranmasına yol açır. Uşaqların tam potensialını ortaya çıxara bilməsi üçün məktəb, ailə və cəmiyyət səviyyəsində bu maneələrin azaldılması və mümkün olduqca aradan qaldırılması vacibdir [4, s.17]. Xüsusi təhsil ehtiyacı olan uşaqların ümumi təhsil sisteminə

inteqrasiyası üçün qanunvericilik bazası yaradılmış və müxtəlif layihələr həyata keçirilmişdir. "Təhsil haqqında" qanun və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanun kimi hüquqi sənədlər, inklüziv təhsilin təmin olunmasını hüquqi baxımdan dəstəkləyir. Bununla yanaşı, Təhsil Nazirliyi və beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində müəllimlərin hazırlığı, dəstək xidmətləri və inklüziv məktəb modelləri üzrə müxtəlif layihələr tətbiq edilir. Azərbaycanda inklüziv təhsilin hüquqi çərçivəsi, xüsusilə son illərdə qəbul edilmiş qanunvericilik aktları və beynəlxalq konvensiyalar vasitəsilə müəyyən edilmişdir. Bu hüquqi çərçivə, xüsusi təhsil ehtiyacları olan uşaqların ümumi təhsil sisteminə daxil olması, onların hüquqlarının qorunması və cəmiyyətə inteqrasiya olunması üçün əlverişli şərait yaratmağı hədəfləyir.

**Azərbaycanda inklüziv təhsilin hüquqi və praktiki aspektləri**

Azərbaycan Respublikası Konstitusiyası - burada hər bir Azərbaycan vətəndaşının təhsil hüququ qorunur. Azərbaycan Respublikası Konstitusiyasının 42-ci maddəsinə görə, hər bir vətəndaşın təhsil hüququ vardır. Bu maddə, xüsusi ehtiyacları olan uşaqların da təhsil hüququnu təmin edir və onların bərabər təhsil imkanlarından yararlanmasını nəzərdə tutur.

2008-ci ildə Azərbaycan BMT-nin "Əlilliyi olan Şəxslərin Hüquqları üzrə Konvensiyası"na qoşulmuşdur. Bu konvensiya, inklüziv təhsilin inkişafına dair beynəlxalq standartları müəyyən edir və üzv ölkələri inklüziv təhsil üçün hüquqi və institusional çərçivə yaratmağa çağırır.

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanunu - Azərbaycanda inklüziv təhsilin hüquqi əsasını təşkil edən ən mühüm qanunlardan biri 2009-cu ildə qəbul olunan "Təhsil haqqında" qanundur. Bu qanun, təhsil sistemində inklüzivliyin təmin olunmasını və xüsusi ehtiyacları olan uşaqların təhsil hüquqlarının qorunmasını ehtiva edir. Qanunun əsas məqamları aşağıdakılardır:

- Fərdi tədris proqramlarının hazırlanması- qanun, xüsusi ehtiyacları olan uşaqlar üçün fərdiləşdirilmiş tədris proqramlarının hazırlanmasını və tətbiq edilməsini nəzərdə tutur. Bu proqramlar uşaqların xüsusi ehtiyaclarına uyğunlaşdırılmış təhsil mühitində inkişafını təmin edir.
- Əlçatan təhsil mühitinin yaradılması - "Təhsil haqqında" qanuna əsasən, təhsil müəssisələrində əlçatan təhsil mühitinin yaradılması xüsusi ehtiyacları olan uşaqlar üçün vacibdir. Bu mühitdə fiziki, intellektual və ya sosial fərqliliklərindən asılı olmayaraq, hər bir uşağın cəmiyyətin bir hissəsi olaraq təhsil alması təmin olunur.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" - 2013-cü ildə qəbul edilən Dövlət Strategiyası, Azərbaycanda təhsilin inkişafı və təhsildə inklüzivliyin təmin olunması istiqamətində önəmli bir sənəddir. Bu strategiya çərçivəsində təhsildə bərabər imkanların yaradılması və inklüziv təhsilin inkişafı əsas prioritetlərdən biri kimi qəbul olunmuşdur. Strategiya, xüsusi ehtiyacı olan uşaqlar da daxil olmaqla bütün uşaqların eyni təhsil imkanlarından yararlana bilməsini və təhsil prosesində bərabər hüquqlarının qorunmasını hədəfləyir. Dövlət Strategiyasında xüsusi təhsil ehtiyacları olan uşaqlarla işləyən müəllimlərin peşə hazırlığının yüksəldilməsi vacib məsələ kimi qeyd edilir. Bu, təhsildə inklüzivliyin təmin olunması üçün müəllimlərin xüsusi bilik və bacarıqlara yiyələnməsini təmin edir.

"Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanunu – 2018-ci ildə qəbul olunan bu qanun, əlilliyi olan şəxslərin hüquqlarının qorunmasını təmin edir. Qanun, BMT-nin "Əlilliyi olan Şəxslərin Hüquqları üzrə Konvensiyası"na əsaslanır və inklüziv təhsil prosesinin hüquqi əsaslarını gücləndirir. Qanun əlilliyi olan uşaqların cəmiyyətin digər üzvləri ilə bərabər şəkildə təhsilalma hüququnu müdafiə edir, əlilliyi olan uşaqların ümumi təhsil müəssisələrinə qəbul olunması və bu müəssisələrdə onlara uyğunlaşdırılmış təhsil mühitinin yaradılması vurğulanır, həmçinin əlilliyi olan uşaqlar üçün dəstək xidmətlərinin göstərilməsini nəzərdə tutur. Bu dəstək xidmətləri, uşaqların təhsil prosesində qarşılaşdığı çətinliklərin aradan qaldırılması və onlara uyğunlaşdırılmış resursların təqdim olunması məqsədi daşıyır.

Son illərdə Azərbaycan təhsil sistemində inklüziv təhsilin inkişafı məqsədilə müxtəlif dövlət proqramları və layihələr həyata keçirilir. Məsələn, Elm və Təhsil Nazirliyi, UNICEF və digər beynəlxalq təşkilatlarla əməkdaşlıq edərək, inklüziv təhsil proqramlarının tətbiqini təşviq edir. Bu proqramlar çərçivəsində xüsusi ehtiyacları olan uşaqların təhsil sisteminə inteqrasiyası, dəstək xidmətlərinin inkişafı və inklüziv təhsil sahəsində mütəxəssislərin hazırlanması əsas istiqamətlərdən

biridir. Azərbaycanda inklüziv təhsilin inkişafını təmin etmək üçün həyata keçirilən proqramlardan biri də Təhsil Nazirliyi tərəfindən idarə olunan "Məktəbdə inklüziv təhsilin inkişafı" proqramıdır. Bu proqram, ümumi təhsil müəssisələrində xüsusi ehtiyacları olan uşaqlar üçün dəstək xidmətlərinin təmin olunmasını və məktəblərin inklüziv təhsil modelinə uyğunlaşdırılmasını hədəfləyir. Dövlət proqramlarından əlavə yeni təlim texnologiyaları müxtəlif bacarıq və potensiala malik təhsilalanları bir araya gətirmək üçün uyğun prinsiplərin tətbiqini zəruri hesab edir. Bu prinsiplər pedaqoji ədəbiyyatda şagirdlərin rəqabət qabiliyyətli, sosial və hərtərəfli inkişafını dəstəkləyən yanaşmalarla yanaşı, interaktiv təlim zamanı rəhbər ideyalar kimi nəzərə alınması vacib olan yanaşmaları da əhatə edir [5, s.57].

Təhsildə keyfiyyətin təmin edilməsi və inklüzivliyin inteqrasiyası bir-birini tamamlayan və qarşılıqlı olaraq təsir edən iki əsas amildir. Keyfiyyətli təhsil, hər bir uşağın potensialını maksimum dərəcədə inkişaf etdirə biləcəyi mühitin yaradılmasını hədəfləyir. İnklüziv təhsil isə, bütün uşaqların – xüsusilə xüsusi ehtiyacı olanların – bərabər təhsil imkanlarından yararlanmasını təmin edir. Bu iki anlayışın birləşməsi, təhsil sistemində həm fərdi inkişafı, həm də sosial inteqrasiyanı dəstəkləyir. Keyfiyyətli təhsil inklüzivliyin əsasını təşkil edir, çünki inklüziv təhsil yalnız təhsil sisteminə daxil olan uşaqlara bərabər imkanlar təqdim etməklə yanaşı, həm də təhsil xidmətlərinin yüksək standartlarda verilməsini təmin edir. Azərbaycanda inklüziv təhsil sahəsində keyfiyyətin təmin edilməsi üçün müxtəlif hüquqi çərçivələr və layihələr mövcuddur. Lakin bu sahədə inkişaf üçün aşağıdakı sahələrdə əlavə tədbirlərin görülməsi vacibdir: müəllimlərin inklüziv təhsil barədə daha dərindən məlumatlı olması və xüsusi ehtiyaclı uşaqlarla işləmək üçün xüsusi təlimlərdən keçməsi, məktəblərdə lazımi tədris materialları və resursların təmin edilməsi, o cümlədən əlilliyi olan uşaqlar üçün uyğunlaşmış dərsliklər və texnoloji vasitələr, təhsil müəssisələrinin fiziki şəraitinin inklüzivliyə uyğunlaşdırılması, xüsusən də xüsusi ehtiyacı olan uşaqların rahatlıqla dərs ala biləcəyi şəraitin yaradılması,inklüziv təhsil və onun əhəmiyyəti barədə ailələr və cəmiyyətin maarifləndirilməsi, inklüzivlik anlayışının geniş şəkildə qəbul edilməsi.

Keyfiyyətli inklüziv təhsil, yalnız xüsusi ehtiyacı olan uşaqların deyil, bütün şagirdlərin faydalana biləcəyi bir təhsil sisteminin qurulmasına imkan yaradır. Bu yanaşma, təhsil müəssisələrində daha ədalətli, müxtəlifliyə açıq və bərabər imkanlar təqdim edən bir mühit yaradır. Azərbaycanda inklüziv təhsil sahəsində keyfiyyətin artırılması, həm müvafiq qanunvericiliyin təkmilləşdirilməsi, həm də resursların və tədris metodlarının daha geniş şəkildə tətbiq edilməsi ilə mümkün olacaq. Azərbaycanın beynəlxalq konvensiyalara qoşulması və inklüziv təhsil üzrə beynəlxalq təcrübələrdən yararlanması ölkədə inklüziv təhsilin inkişafını dəstəkləyir. Gələcəkdə bu sahədə daha da inkişaf etmək üçün inklüziv təhsil modellərinin tətbiqinin genişləndirilməsi və təhsildə inklüzivliyin daha çox təşviq edilməsi Azərbaycan təhsil sisteminin prioritetləri arasında qalmalıdır.

**Nəticə**

Təhsildə inklüzivlik və keyfiyyət məsələləri qlobal təhsilin inkişafında mühüm yer tutan prioritetlərdən biridir. Dünyada bir çox ölkələr inklüziv təhsil yanaşmalarını tətbiq edərək, müxtəlif ehtiyacları olan uşaqların ümumi təhsil sisteminə inteqrasiyasını təmin etməyə çalışır. Bu təcrübələr, sosial bərabərliyin və təhsil keyfiyyətinin artırılmasında mühüm addımlar atılmasına kömək edib.

Azərbaycanda da inklüziv təhsil sahəsində qanunvericilik və struktur islahatları həyata keçirilmişdir. Lakin bu sahədə hələ də qarşıya çıxan bəzi çətinliklər və təkmilləşdirməyə ehtiyacı olan sahələr mövcuddur. İnklüziv təhsil modelinin tam mənimsənilməsi üçün tədris proqramlarının daha da fərdiləşdirilməsi, müəllimlərin peşəkar hazırlığının artırılması və xüsusi ehtiyacı olan uşaqların dəstəklənməsi vacibdir.

Dünya təcrübəsindən alınan dərslər və Azərbaycanın təhsil sistemindəki təcrübələr bir araya gətirilərək, inklüziv təhsilin daha effektiv tətbiqi üçün güclü bir təhsil infrastrukturu qurulması mümkündür. Nəticə etibarilə, inklüziv təhsil, yalnız sosial və iqtisadi ədalətin təmin olunmasında deyil, həm də təhsil sisteminin hərtərəfli inkişafında əsas amil rolunu oynayacaqdır.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. İnkluziv siniflərdə təlimin təşkili. Bakı, TİPİİ, 2018, 68 s.
2. LoremanT., Deppeler J. Harvey D. İnklüziv təhsil. Sinifdə müxtəlifliyin dəstəklənməsi üçün təcrübi təlimatlar. Bakı, 2020, 324 s.
3. Howgego C. Miles S. və Myers J. İnklüziv təlim. Əlilliyi və öyrənmə çətinliyi olan uşaqlar 2014, 58 s.
4. UNESCO İnklüziv siniflərdə əlilliyi olan uşaqların təhsili. 2005, 104 s.
5. Hüseynova N. İmanova L. İnklüziv təhsilə cəlb olunan şəxslərlə işin aparılması. Bakı, 2020, 58 s.

## INCLUSION AND QUALITY ISSUES IN EDUCATION: WORLD EXPERIENCE AND AZERBAIJANI REALITIES

**Z.V.Tanriverdiyeva, A.F.Ismailova, G.A.Najafova**
Mingachevir State University

***Abstract:*** *Inclusion contributes to the improvement of the quality of education and social justice, providing a better and more adapted educational experience. The main goal of inclusive education is to create equal educational opportunities regardless of physical, mental or emotional differences, guaranteeing the right of every child to education. In addition to the world experience, extensive information is provided on the development of Azerbaijan in the field of inclusive education, the current legislation in this area, programs and projects implemented in the education system. Successful models of countries such as the USA, Finland and Italy are shown as an example for Azerbaijan. Attention is paid to the legal framework and the state strategy for the development of inclusive education in Azerbaijan, which meet the issues of teacher training and the development of support services. Proposed additional measures to improve the quality of education in Azerbaijan are also mentioned, important steps for the sustainable development of the inclusive education model are envisaged.*

***Keywords:*** *inclusiveness in education, global educational experience, education system of Azerbaijan, individual educational programs, social integration, international conventions, accessible educational environment, quality education*

## ВОПРОСЫ ИНКЛЮЗИИ И КАЧЕСТВА В ОБРАЗОВАНИИ: МИРОВОЙ ОПЫТ И АЗЕРБАЙДЖАНСКИЕ РЕАЛИИ

**З.Ф.Танрывердиева, А.Ф.Исмаилова, Г.А.Наджафова**
Мингячевирский государственный университет

***Резюме:*** *Инклюзивность способствует повышению качества образования и социальной справедливости, обеспечивая более совершенный и адаптированный образовательный опыт. Основная цель инклюзивного образования – создать равные образовательные возможности независимо от физических, умственных или эмоциональных различий, гарантируя право каждого ребенка на образование. Помимо мирового опыта, представлена обширная информация о развитии Азербайджана в сфере инклюзивного образования, действующем законодательстве в этой сфере, программах и проектах, реализуемых в системе образования. В качестве примера для Азербайджана показаны успешные модели таких стран, как США, Финляндия и Италия. Внимание уделяется правовым основам и государственной стратегии развития инклюзивного образования в Азербайджане, отвеча-*

*ющим вопросам подготовки учителей и развития вспомогательных служб. Также упоминаются предлагаемые дополнительные меры по повышению качества образования в Азербайджане, предусматриваются важные шаги по устойчивому развитию модели инклюзивного образования.*

***Ключевые слова:*** *инклюзивность в образовании, мировой опыт образования, система образования Азербайджана, индивидуальные образовательные программы, социальная интеграция, международные конвенции, доступная образовательная среда, качественное образование*

**Elmi redaktor: fil.e.d., prof. F.Cəlil**
**Çapa təqdim edən redaktor: t.f.d., dos. N.Zeynalov**
**Daxil olub: 15.04.2025**
**Çapa qəbul edilib: 23.04.2025**